# Azərbaycan XİN-in nümayəndə heyəti ABŞ-də bir sıra görüşlər keçirib

Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti ABŞ-yə işgüzar səfər edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, səfərin ilk həftəsi, mayın 18-də nümayəndə heyəti ABŞ Senatının üzvləri Senator Tom Koton, Senator Ben Kardin, Konqresin Nümayəndələr Palatasının üzvləri Cək Berqmən, Çak Flayşmən, Mayk Ezel və Robert Aderholt ilə görüşüb.

Görüşlərdə ABŞ-Azərbaycan ikitərəfli əlaqələri, həmçinin regionda gedən proseslər, eyni zamanda Ermənistanla aparılan sülh danışıqları barədə qarşı tərəf məlumatlandırılıb.

Konqres üzvləri, həmçinin postmünaqişə dövründə davam edən mina təhdidləri, bərpa və yenidənqurma işləri barədə məlumatlandırılıblar.

Görüşlərdə, "Laçın" sərhəd-buraxılış məntəqəsinin təsis edilməsi ilə əlaqədar ABŞ-də fəaliyyət göstərən radikal erməni təşkilatlarının Konqres üzvlərinə təqdim etdikləri həqiqətə uyğun olmayan və əsassız məlumatların, bu çərçivədə ABŞ Konqresinin üzvləri tərəfindən birtərəfli və ABŞ-nin milli maraqlarına xidmət etməyən qətnamələrin irəli sürülməsinin iki ölkə arasında əlaqələrlə yanaşı, hazırda davam edən sülh danışıqlarına da zərər verdiyi vurğulanıb.



Görüşlərdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Eyni gündə nümayəndə heyəti ABŞ-Azərbaycan Ticarət Palatasını ziyarət edib, Kolumbiya əyaləti və ətraf ştatlarda yaşayan Azərbaycan icmasının fəalları ilə görüşüb.

Nazir müavini və nümayəndə heyəti iyunun 21-də Nyu York şəhərində Azərbaycan bayrağının ucaldılması tədbirində iştirak edərək, orada çıxış edib.

Səfər çərçivəsində nümayəndə heyətinin Nyu York şəhər meriyasının xarici əlaqələr komissiyasının sədri Edvard Mermelştayn ilə görüşü keçirilib.

Nazir müavini Nyu Yorkda, həmçinin yerli azərbaycanlı icması ilə də görüşüb.

Nümayəndə heyətinin ABŞ-yə səfərinin mayın 24-dək davam etməsi və digər rəsmi şəxslərlə görüşlərin keçirilməsi nəzərdə tutulur.

Azərbaycan.- 2023.- 23 may.- S.10.